

*Ramiz İsmayıl*

## Aparsın

*Dərdi "əzizləmə"ay Mədət oğlu,*
*Axar suya söylə-sellər aparsın.*
*Sovur xırman kimi,sovur göylərə*
*Sərçələr daşısın, yellər aparsın.*

*Dərd dediyin şərbət deyil içəsən,*
*Bou-buxuna xələt kimi biçəsən.*
*Günah deyil, qələt deyil keçəsən*
*Yük elə,dəvələr fillər aparsın.*

*Ramizəm,həmdəmim qəmdi,ələmdi,*
*Simsarım kağızdı,dəftər-qələmdi.*
*Mən Yanıq Kərəməm,dərdim Lələmdi.*
*Külümü Əsliyə ellər aparsın.*

## Dərdim

*Təzə çiçək açıb, təzə gül açıb*
*Mənim çiçək dərdim, mənim gül dərdim.*
*Vəfalı sirdaşdı - unutmur məni*
*Yolarına çiçək sərdim,gül sərdim.*
*Mənim çiçək dərdim, mənim gül dərdim.*

*Yönü hara düşsə mehri bizədi,*
*Sevgisi köhnədi, ətri təzədi,*
*Köksümdə göynəyən yeri bəzədi,*
*Dərdim qönçə idi gülə döndərdin*
*Mənim çiçək dərdim, mənim gül dərdim.*

*Qoşa yaşayırıq, qoşa ölərik,*
*Bir məzar yerini yarı bölərik,*
*Üz-üzə, göz-gözə deyib gülərik -*
*Sənə çiçək dedim,mənə gül,dərdim*
*Mənim çiçək dərdim, mənim gül dərdim.*

*Qınağa, tənəyə sinə gəribsən,*
*Nə qədər "get" desəm, yenə gəlibsən*
*Ramizin qəlbində sanma, qəribsən*
*Səndən ötrü çiçək dərdim, gül dərdim*
*Mənim çiçək dərdim, mənim gül dərdim.*

## Vay o gündən

*Vay o gündən...*
*Qapı-qapı aş gəzənə,*
*Sürməli göz-qaş gəzənə,*
*Pambıq ilə baş kəsənə -*
*Inanıb sirdaş deyəsən?*

*Vay o gündən...*
*Kişi arvad geyimində*
*Arvad kişi geyimində*
*Çaşdıq "bacı" deyimində*
*Hansına "qardaş" deyəsən?*

*Vay o gündən...*
*Gedə gözünün qarası,*
*Öldürə hicran yarası,*
*Məzarlıqda boy sırası*
*"Artacaq bir daş" - deyəsən.*

## Necəsən

*(Ə. İ. H. Silsiləsindən)*

*Əlli ildi həsrətini çəkirəm*
*Əlli ildə mənsiz olan, necəsən?*
*Yurd-yuvasız bir sərsəri dərvişəm*
*Yad ürəkdə yuva salan, necəsən?*

*Qan sızılır əl dəydiysə harama,*
*Məlhəm qoyan tapılmadı yarama,*
*Ayrı Məcnun gəzmə, dəli arama*
*Təkcə mənəm qəlbi nalan, necəsən?*

*Ərzurumun gədiyinə qar düşür*
*Ah çəkirəm, sinələrə qor düşür*
*Qismətimə Əsli kimi yar düşür,*
*Düyməməri bağlı qalan, - necəsən?*

*Ovutmadı ayrı canan könlümü*
*Od-ocaqsız alovlanan könlümü,*
*Əlli ildi səndən sınan könlümü*
*Sən almasan, kimdir alan, necəsən?!*

*Boylandığım cığır hanı, iz hanı,*
*O qaraqaş, o qaragöz qız hanı?*
*Bəndə poza bilməz Tanrı yazanı*
*O Ramizəm - gülüm solan - necəsən?*

## İnciyirik

*Şər-böhtan ata-ata,*
*Aranı qata-qata,*
*Günaha bata-bata,*
*Günahdan inciyirik.*

*Sığal çək dönə-dönə*
*Imansız dönməz dinə,*
*Uyub şeytana, cinə*
*Allahdan inciyirik.*

*Günahsız diriləri,*
*Basdırıb diri-diri,*
*Satırıq qəbir yeri,*
*Gorgahdan inciyirik!*

*Hələ heç kim yozammır*
*Könül yardan usanmır:*
*-Gecə niyə uzanmır? -*
*Sabahdan inciyirik.*

*Ramiz, verdin dərdə üz,*
*Yüz dözmüsən, bir də döz*
*Gülldən betərdi söz*
*Silahdan inciyirik!*